# Mədəniyyət sistemində AZƏRBAYCAN TARİXİ muzeyinin rolu

*Dünyanın inkişaf etmiş ölkələrinin mədəniyyət sistemində muzeylərin özünəməxsus yeri vardı. Müasir qloballaşma şəraitində Azərbaycan muzeyləri də çoxfunksiyalı fəaliyyətləri ilə milli mədəniyyətin zənginləşməsi missiyasına xidmət göstərirlər.*

Bu missiyanın müvəffəqiyyətlə reallaşmasında Azərbaycan Tarixi muzeyinin tarixi xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Təşəkkül tapdığı vaxtlardan bu günə kimi bu muzey respublikanın ən aparıcı mədəniyyət obyektlərindən biri kimi fəaliyyət göstərməkdədir. Hələ XX əsrin ilk onilliklərində Azərbaycanda mədəni səviyyənin bir nümunəsini muzey işi istənilən durumunda göstərmişdi. Azərbaycanın qabaqcıl düşüncəli maarifpərvər ziyalılarından A.Bakıxanov, M.F.Axundov, Əhməd bəy Cavanşir, Mirzə Adıgözəl bəy, Rəşid bəy Əfəndiyev, C.Məmmədquluzadənin kulturoloji mülahizələrində mədəni səviyyənin yüksəldilməsi, ölkəşünaslıq, diyarşünaslıq biliklərinin zənginləşdirilməsi, insanların maarifləndirilməsi məqsədilə muzey müəssisələrinin yaradılması ideyaları önəmli yer tuturdu. Bu ideyaların reallaşması üçün əlverişli şərait ötən əsrin 20-ci illərində yetişdi. 1920-ci il iyunun 15-də Azərbaycan SSR Xalq Maarif Komissarlığının nəzdində "Muzey-ekskursiya (muzekskürs) yarımşöbəsi yaradıldı. Yarımşöbənin ilk kollegiya iclasında qəbul edilən qərarda deyilirdi; "Muzey tədris xarakterində olmalıdır; əsas diqqət doğma diyarın öyrənilməsinə yönəldilməlidir". Bu məqsəddən irəli gələrək "Doğma diyarın tədris muzeyi" adlı muzey təşkil edildi. Muzeyə pedaqoq S.Savelyev rəhbərlik etdi. (Очерки истории музейного дела в СССР Изд-во "Сов.Россия", М.: 1971, вып. VII, стр.250). 1920-ci ilin iyulunda isə, muzeyin Bakının ən gözəl, möhtəşəm binasına milyonçu Z.Tağıyevin mənzilinə köçürülməsi qərara alınır. Beləliklə, tədris muzeyi, sonralar isə çoxprofilli dövlət muzeyi kimi təşkil edilən Azərbaycan Tarixi muzeyinin təməli belə qoyuldu.

1920-ci ilin oktyabrında yeni ad-Azərbaycan SSR əsas üstünlüyü doğma diyarın tarixi təbiətinin, ərazisinin öyrənilməsinə, o cümlədən bütövlükdə mədəniyyətin təbliğinə yönəltmişdi. Beləliklə, milli mədəniyyət sistemində mühüm status əldə edən Azərbaycan Tarixi muzeyi, sözün əsil mənasında mədəni dəyərlərin toplanması, mühafizəsindən əlavə, onların təbliğini də mühüm funksiya hesab etdi.

Mədəniyyət sistemində mühüm yer tutan Azərbaycan Tarixi muzeyi üzərinə düşən bu funksiyaları tarixi şəraitin, sosial mühitin tələblərinə cavab verərək reallaşdırmış, bütün dövr və mərhələlərdən şərəflə çıxmışdı. Azərbaycan Tarixi muzeyinin milli mədəniyyət sistemindəki mövqeyini müəyyənləşdirmək üçün bu mədəniyyət ocağının keçirtdiyi inkişaf dinamikasına diqqət yetirmək lazımdır. Muzeyin yarandığı gündən bu günədək inkişaf dinamikası aşağıdakı dövrləşmə təsnifatından ibarətdir:

I mərhələ: 1920 - 70-ci illər

II mərhələ: 1971 - 2000-ci illər.

Hər mərhələ tarixi şəraitin xüsusiyyətlərinə görə müxtəlif dövrlərlə səciyyələnir. Birinci mərhələ 1920 - 70-ci illəri əhatə edərək üç dövrə bölünür;

I dövr - 1920 - 40-cı illər-muzeyin təşəkkülü və formalaşma dövrü;

II dövr - 1941 - 45-ci illər - muzeyin Böyük Vətən müharibəi illərindəki fəaliyyət dövrü;

III dövr - 1946 - 70-ci illər.

1920 - 40-cı illərdə Azərbaycan Tarixi Muzeyi bir mədəni müəssisə kimi formalaşma prosesini keçirərək tələb olunan ən ilkin tədbirin həyata keçirilməsi işinə başladı. 1924-cü ildə muzey artıq bir mədəni müəssisə kimi formalaşma prosesini başa çatdırdı. Bu illərdə respublka Xalq Maarifi Komissarlığı Dövlət Muzeyi haqqında Əsasnaməni hazırlayaraq təsdiqlədi. Bu dövrdə muzey öz fəaliyyətini üç istiqamət üzrə aşağıdakı şöbələr üzrə həyata keçirtdi: tarix-etnoqrafik; sənətşünaslıq və təbiətşünaslıq-tarixi.

1928-ci ildə isə, muzeydə maket, müqəvvaların hazırlanmağı üzrə emalatxana, arxeoloji əşyalar üzrə bərpa emalatxanası və fotolaboratoriya təşkil olundu. Bu dövrdə muzey fəaliyyətinin inkişafında əsas xüsusiyyətlərdən biri də şöbə və fondların dəqiqləşdirilməsi idi. Ekspozisiya, sərgilərin təşkilinə xüsusi yer verildi. Əgər 1930-cu ilə qədər muzey əşyaçılıq xarakteri kəsb edirdisə, sonrakı illərdə elmi-tədqiqatçılıq mühüm yer tutmağa başladı.

1929-cu ildə muzeyin fəaliyyətinə təsir etmək məqsədilə fond və ekspozisiyalar üçün sərfəli məkan əldə edildi. Məkan darlığına görə 1934-cü ildə Azərbaycan XMK-nın kollegiyasının müvafiq qərarına əsasən muzeyin Şirvanşahlar Sarayının binasında yerləşdirilməsi qərara alındı. 1937-ci ildə sarayın beş zalında Azərbaycan tarixinə ekspozisiya hazırlandı. Yerləşdiyi məkanın darlığı muzey fəaliyyətini inkişafdan saxlamadı. 1939-cu ildə muzey XVIII - XIX əsrləri əhatə edən ekspozisiyanı tərtib etdi. Ekspozisiya aşağıdakı mövzuları əhatə edirdi; a) Azərbaycan xalqının İran feodal monarxiyasına qarşı mübarizəsi; b) XVIII əsrdə Türkiyə, İran, Rusiyanın Azərbaycanda hakimiyyəti uğrundakı mübarizəsi; v) Azərbaycanda Nadir şah hakimiyyətinə qarşı mübarizə və xanlıqların idarəebdilməsi; q) Azərbaycanda mədəniyyət: d) XIX əsrdə məktəb; e) Azərbaycan şairləri, ə) Rusiya imperiyası tərəfindən Azərbaycanın qəsbi və s.

Böyük Vətən muharibəsinin başlanması Azərbaycan Tarixi muzeyinin üzərinə düşən vəzifələrin reallaşmasına ciddi mane oldu. 1941-45-ci illər bu səbəbdən muzeyin 1920-70-ci illərdəki fəaliyyət mərhələsinin ikinci dövrünü əhatə etdi. Hərbi şəraitdə muzey arxeoloji, tədqiqatçılıq, qazıntı, etnoqrafik materialların toplanması üzrə işinə daha üstünlük verdi.

Bundan əlavə, müharibə illərində muzey respublikadan hərbiyə yollanan oğlan və qızların qəhrəmanlıqları haqqında məlumat və materialların toplanması və vətənpərvərlərin fəaliyyətini əks etdirən sərgilərin təşkilinə xüsusi diqqət yetirdi.

1945-ci ildə respublikada Elmlər Akademiyasının təşkili ilə əlaqədar muzey Azərbaycan SSR EA-nın nəzdində Azərbaycan Tarixi Muzeyi adına layiq görüldü.

Muzeyin fəaliyyətinin birinci mərhələsinin üçüncü dövrünü 1946-70-ci illər əhatə edir. Bu illər muzeyin inkişafa doğru irəlilədiyi bir prosesi təşkil edir. Müharibədən sonra muzey fəaliyyətində yeni dönüş yaratdı. Fond və şöbələrin sayı artırılaraq yeni ekspozisiyaların təşkilinə böyük zəmin yaratdı. Bu dövrdə muzey həmçinin tarixin "ağ ləkələri"nin üzə çıxırılmasına, Azərbycanın müxtəlif regionlarında axtarıcılıq işinin gücləndirilməsinə xüsusi diqqət yetirdi. Bunun nəticəsində muzeyin bütün fondları zənginləşdirildi.

Azərbaycan Tarixi muzeyinin fəaliyyətinin növbəti mərhələsini 1971-2000-ci illər əhatə edir. Milli mədəniyyət sistemində bu mərhələ muzey fəaliyyətinin təkmilləş-





dirilməsi dövrü kimi səciyyələndirilir. Həmin mərhələ 1971-80-cı illər (I dövr), 1990-2000-ci illəri əhatə edən II dövrə aid edilir.

Azərbaycan Tarixi muzeyinin yarıməsrlik fəaliyyətinə yekun ilə başlayan bu mərhələdə müəssisə öz işini bütün istiqamətlər üzrə inkişaf etdirərək respublikada aparıcılıq mövqeyinə daima diqqət yetirdi. Respublikada diyarşünaslığın inkişafına, tarixi biliklərin yayılmasına ciddi təkan yaradırdı. Fəaliyyətinin təkmilləşdirilməsində muzey digər ölkələrlə sıx əməkdaşlıq edir, beynəlxalq mədəni təcrübənin əldə edilməsi üçün elmi ezamiyyətlərin təşkilinə diqqəti artırırdı. Xüsusilə, muzeyin elmi yaradıcılıq istiqaməti üzrə fəaliyyəti təqdirəlayiq hesab edilir. Muzeyin nəzdində fəaliyyət göstərən Elmi Şura onlarla namizədlik dissertasiyalarının müzakirəsini keçirərək alimlərin fəalyyətinə qiymət verirdi.



1980-cı illərin axırında sovet dövlətçilik sisteminin, sosializmin bünövrəsinin dağılması tarixi biliklərə baxışı da kökündən dəyişdirdi. Cəmiyyətin bütün strukturlarında olduğu kimi, mədəniyyət sistemi, tarixə münasibətdəki qlobal dəyişikliklər Azərbaycan Tarixi muzeyinin fəaliyyətinin keyfiyyətcə yeni məzmunda çıxış etməsinə səbəb oldu. Belə ki, 1990-cı ilin payızında Azərbaycan Demokratik Cümhuriyyətinin bərpası muzeyin müasir fəaliyyətinin məzmununu təmin etdi. Bir tərəfdən demokratiyanın bərpası, digər tərəfdən isə, Qarabağla bağlı hərbi münaqişələrin başlanması Azərbaycan Tarixi muzeyinin fəaliyyətində keçmişə yenidən nəzər yetiməyi başlıca vəzifə kimi qarşıya qoydu.

90-cı illərin əvvəllərində Azərbaycan Tarixi muzeyinin fəaliyyətinin strukturunda elə bir ciddi dəyişikliklər olmadı. 80-cı illərdə olduğu kimi, muzeyin şöbələri və onlara müvafiq fondları aşağıdakılar idi: arxeoloji - etnoqrafik şöbə və fond; sovet dövrü ekspozisiya və fondu: qədim və orta əsrlər ekspozisiya və fondu; numizmatika və etnoqrafika şöbə və fondu: elm, tarix şöbəsi: elmi-maarif işi şöbəsi, məktəblə iş; texniki laboratoriya: bədii-bərpa emalatxanası.

Əsas dəyişiklik muzeyin fəaliyyət məzmununda uzun illər üzə çıxarılmayan fakt və dəlillərin işıqlandırılmasına imkan yaradılmasında idi. Düzdür, həqiqətlərin üzə çıxarılmasına keçmiş dövrlərdə də imkan yaradılsa da (30 - 50-ci illərdə), bunu sonadək lazımi səviyyədə həyata keçirtmək mümkün deyildir. Çünki keçmiş sovet rejimində "demokratiya", "söz azadlığı" əməldə deyil, yalnız sözdə idi.

"Tarixin ağ ləkələri" adı altında muzey tədqiqat axtarış işlərini gücləndirdi ki, bu da əsasən, fond və arxivdə aparıldı. 90-cı illərə qədər haqqında söhbət açılması, mühakimələr yürüdülməsi və elmi təhlillər verilməsi qadağan edilən şəxsiyyət və hadisələr haqqında məqalə və nəşrlərin həyata keçirilməsi ilə nəticələnirdi. Bu tədqiqatlara 90-cı illərdə çap etdirilən aşağıdakı elmi işlər aiddir: M.Bakıxanova və V.Kvaçidze "Azərbaycanda dövlətçilik və onun rəmzləri" (Kitab-albom), S.Kazımova "Azərbaycan-Azərbaycanda milli-azadlıq hərəkatı" mövzusunda (N.Nərimanov, H.Ağayev, X.Məlikaslanov, H.Cavid, publisist R.Məlikovun əlyazmaları) məqalələr toplusu şəklində və s.

90-cı illərdə muzeyin hazırladığı sərgilərdə bütün fondlar yaxından iştirak edirdi. Fəaliyyətində sərgilərə başlıca diqqət verilməsi bir sıra amillərlə izah edilirdi. Əvvəla, muzey əldə etdiyi material və bilikləri bu operativ tədbir yolu ilə həyata keçirməyə daha üstünlük verirdi. Digər tərəfdən bunu zəruri edən ən əsas səbəb muzey binasının kapital təmirə başlanması ilə əlaqədar idi. Binanın əsaslı təmiri və ekspozisiyanın yenidənqurulmaya olan ehtiyacını nəzərə alaraq 1980-cı ildən fəaliyyət göstərən muzeyin ekspozisiyası 2000-ci ildə demontaj edilmişdi.

Muzeyin əsaslı təmiri onun fəaliyyətinin bir sıra istiqamətlərinin daha da inkişafına geniş imkanlar açdı. Xüsusilə, muzeyin müxtəlif şöbələri üzrə elmi mütəxəssislərin tədqiqatçılıq, elmi yaradıcılığı geniş vüsət tapdı. Yeni tarixi şərait, tarixə əsil demokratik aspektdən yanaşma Azərbaycanın keçmiş və müasir həyatının hadisələri haqqında təhlillərin verilməsinə böyük zəmin yaratdı.

Muzey aktlarından göründüyü kimi, bu mədəniyyət ocağı xalqın tarixinin tədqiqi, öyrənilməsi, onun təbliğini həyata keçirtməklə yanaşı hazırda bu muzeyin respublikanın bir çox regionlarında diyarşünaslıq filialları da fəaliyyət göstərməkdədir. Azərbaycan Tarixi muzeyi bu muzeylərə hərtərəfli kömək edir, onların fəaliyyətini tənzimləyir.

Respublikanın bu aparıcı muzeyi öz qlobal prioritetləri ilə, Azərbaycanın müasir mədəniyyət tarixində mühüm yer tutur.

**Nərmin MƏMMƏDOVA,**
*ADMİU-nun aspirantı*

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan SSR EA. Azərbaycan Tarixi Muzeyinin əsərləri. D-2153-ci 10-87.
2. Azərbaycan SSR EA. Azərbaycan Tarixi Muzeyinin əsərləri. D-2154-ci 10-87.
3. Azərbaycan SSR EA. Azərbaycan Tarixi Muzeyinin əsərləri. D-1325-№ 1-49
4. Azərbaycan SSR EA. Azərbaycan Tarixi Muzeyinin əsərləri. D-1569-C.9.
5. Azərbaycan Tarixi Muzeyi. B.: Elm, 1983. Azərbaycan SSR EA Azərbaycan Tarixi Muzeyi. Muzeyin 1983-cü il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyanın materialları B.: Elm. 1985.
6. Muzey işinə dair sənədlər toplusu. B.: Qanun, 1991.
7. Музей Академия наук СССР и Академий наук союзных республик. М.: 1983.
8. Очерки истории музейного дела в СССР. Издательство "Советская Россия", М.: 1971. вып. VII.